QƏLƏBƏ

İctimai-siyasi qəzet

28 fevral 2017-ci il, çərşənbə axşamı, № 9-11 (8.451)
Qəzet 1924-cü ildən çıxır

TƏSİSÇİ: SALYAN RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

Hesabat yığıncağında yeni vəzifələr müəyyənləşdirildi



Fevralın 9-da Salyan rayon İcra Hakimiyyəti başçısının 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və 2017-ci ildə qarşıda duran vəzifələrə həsr edilmiş hesabat yığıncağı keçirilmişdir. Yığıncaqda Azərbaycan Respublikası-



nın Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr edilmiş iclasındakı çıxışından irəli gələn vəzifələr geniş təhlil olunmuş, qarşıda duran yeni vəzifələr müəyyənləşdirilmişdir.

İclasdan əvvəl tədbir iştirakçıları Heydər Əliyev parkına gələrək ümummilli liderin abidəsini ziyarət etdilər, önünə gül dəstələri düzdülər. Sonra iştirakçılar Heydər Əliyev Mərkəzinin foyesində Salyanda istehsal olunmuş kənd təsərrüfatı və sənaye məhsullarından ibarət sərgi ilə tanış oldular.

Salyan rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov hesabat məruzəsi ilə çıxış edərək möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə 2016-cı ildə bütün dünyada ciddi iqtisadi böhranın davam etməsinə baxmayaraq, ölkəmizdə sosial-iqtisadi inkişafın davam etdiyini vurğulamış, iri layihələrin həyata keçirildiyini qeyd etmişdir.

Məruzəçi rayon həyatının müxtəlif sahələrdəki vəziyyətindən, həlli vacib məsələlərdən söz açaraq bildirdi ki, ötən il rayonda istehsal və xidmət sahələrinin genişləndirilməsi, abadlıq-quruculuq işlərinin görülməsi istiqamətində tədbirlər davam etdirilmişdir. Salyan şəhərində, qəsəbə və kəndlərdə geniş abadlıq-quruculuq işləri

həyata keçirilmiş, əhalinin zəruri ehtiyaclarının ödənilməsi, rifahının yüksəldilməsi diqqət mərkəzində olmuşdur.

2016-cı ilin ölkəmizin tarixində dərin iqtisadi islahatlar dövrü kimi qalması, bundan sonra da qeyri-neft sektorunun inkişafının diqqət mərkəzində olması məhz bunu sübut edir. Ölkəmiz neftlə zəngin olan digər ölkələr kimi, neftin qiymətinin aşağı düşməsindən əziyyət çəkirdi. Ancaq neft ixrac edən bütün ölkələrin addımlarına nəzər salsaq görərik ki, biz o ölkələrdənik ki, bu böhranlı vəziyyətdən də uğurla çıxa bilmişik. Neftlə zəngin olan bir neçə başqa ölkə var ki, bizim kimi bu vəziyyətdən uğurla çıxa bilmişdir. Neftin qiyməti isə 3-4 dəfə aşağı düşmüşdür.

Hesabat dövründə bizim üçün ən əlamətdar hadisə sentyabr ayının 3-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rayonumuza səfəri olmuşdur. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti Salyan şəhərinə Şirvan-Muğan magistral su kəmərindən çəkilmiş yeni içməli su xəttinin, Tarix-Diyarşünaslıq Muzeyinin, Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının inzibati binasının, Babazanan yaşayış massivini şəhərin mərkəzi ilə birləşdirən körpünün və Ələt-Astara-İran dövlət sərhədi

avtomobil yolunun 31-54 kilometrlik hissəsinin açılışında iştirak etmiş, Kürsəngi kəndindəki pambıq sahələrinə baxış keçirmiş, p a m b ı q ç ı l a r l a görüşmüşdür.

Rayon İctimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti rayonumuzun sosial-iqtisadi potensialını yüksək qiymətləndirmiş, Salyan rayonunun inkişafı üçün yeni dövr, yeni mərhələ başlandığını bildirmiş, rayonda kənd təsərrüfatının və sənayenin inkişafı ilə əlaqədar öz tövsiyə və tapşırıqlarını vermişdir.

Azərbaycan Respublikası Prezidentinin 26 avqust 2016-cı il tarixli Sərəncamı ilə Çuxanlı-Piratman-Gəncəli-Parça Xələc-Seyidan avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 3,8 milyon manat vəsait ayrılmışdır. 30,2 km kəndarası avtomobil yolunun tikintisi əsasən başa çatdırılmışdır və hazırda son tamamlama işləri aparılır.

Azərbaycan Respublikası Prezidentinin 7 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə Salyan şəhərində 1200 şagird yerlik yeni ümumtəhsil məktəb binasının tikintisi üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Salyan Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3,0 (üç) milyon manat vəsait ayrılmışdır.

Məktəb tikintisi üçün müvafiq torpaq sahəsi ayrılmış, layihə-smeta sənədləri hazırlanmış, binanın bünövrəsi qazılmış, bünövrəyə dəmir beton sütunlar olmaqla ümumilikdə 591 m3 beton tökülmüşdür. Tikilinin bünövrəsində 413 m2 qalınlığı 40 sm olan mişar daşından hörgü işi aparılmışdır. İşlər nəzərdə tutulan plan üzrə davam etdirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 oktyabr 2016-cı il tarixli, 537-s saylı sərəncamına əsasən Salyan rayonunda pambıqçılığın inkişafı ilə əlaqədar 5000 ha sahənin suvarma suyu ilə təmin edilməsi üçün 500,0 min manat, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 yanvar tarixli, 2607 nömrəli sərəncamına əsasən isə 2017-ci ilin dövlət büdcəsində nəzərdə tutulan dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündən 1 milyon 300 min manat vəsait ayrılmışdır.

2016-cı ilin avqust ayından başlayaraq İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin maliyyə dəstəyi ilə rayonun kəndlərində bir sıra layihələr həyata keçirilmişdir. Belə ki, Parça Xələc, Seyidan, Qarabağlı, Gomuşlu, Təzəkənd, Kolanı, Yenikənd kəndlərində ümumi uzunluğu 54 km olan kənddaxili yollara çınqıl döşənmiş, Şəkərli kəndində tibb məntəqəsinin tikintisinə başlanılmışdır.

Salyan şəhərində Yeni Azərbaycan Partiyası rayon təşkilatı üçün inzibati binanın, "Babazanan" yaşayış massivini Salyan şəhəri ilə birləşdirən və Ələt-Astara magistral avtomobil yolunda, Çuxanlı kəndi ərazisində Kür çayı üzərində körpülərin, Seyidan kəndində 132 şagird yerlik yeni məktəb binasının tikintisi başa çatdırılmış, Ələt-Astara yolunun 29,5-ci km-də Baş Dövlət Yol Polisinin Yol Patrul Xidməti üçün yeni inzibati bina tikilib istifadəyə verilmiş, Salyan Tarix-Diyarşünaslıq muzeyinin əsaslı təmir edilərək yenidən qurulmuşdur.

Rayon Prokurorluğu və Kənd Təsərrüfatı idarəsi üçün inzibati binaların, 24 mənzilli 5 və 27 mənzilli 7 mərtəbəli yaşayış binalarının tikintisi isə başa çatmaq üzrədir.

Hesabat dövründə rayonda abadlıq və quruculuq işləri davam etdirilmişdir. Salyan şəhərinin ad göstərici "Qoşa qala"nın tikintisi başa çatdırılmış, X.R.Ulutürk abidəsi təmir edilmiş, Ə.B.Hüseynzadənin abidəsinin ətrafında əsaslı abadlıq işləri görülmüş, Salyan dairəsi və 1941-1945-ci illər Böyük Vətən Müharibəsi abidəsi əsaslı təmir edilmiş, şəhər qəbiristanlığında olan qardaşlıq məzarı təmir olunmuş, şəhərdə olan uşaq poliklinikasının və Ə.Kürçaylı küçəsində yerləşən inzibati binaların fasadları təmir edilmişdir. Şəhərin Heydər Əliyev, M.Ə.Rəsulzadə, T.Davudzadə, T.Xəlilbəyli, Ə.B.Hüseynzadə, Ə.Hüseynov, N.Nərimanov, H.Z.Tağıyev, Ə.Kürçaylı küçələrində abadlıq quruculuq işləri görülmüşdür. Belə ki, Şəhər küçələri təmir olunaraq 3615 kv.m üzlük daşları döşənmiş, səki kənarına 6603 metr bordurlar düzülmüş, 3050 metr küvet qazılmış, 5625 m2 sahəyə tamet-plitə düzülmüş və 23549 m2 asfalt basılmışdır. 32 ədəd kommunal binanın dam örtüyü 18773 m2 dəmir şiferlə əvəz olunmuş, 2500 m2 fərdi evlər və istinad divarları rənglənmiş, şəhər küçələrində ümumilikdə 11000 metr beton bordürlər rənglənmiş, Bakı-Astara avtomobil yolunun Salyan şəhər ərazisindən keçən hissəsində istinad divarlarına "ağlay" üzlük piitəsi vurulmuş, divarlar karniz üzlük ilə



üzlənmişdir.

Rayonda qeyri neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsi, yeni istehsal sahələrinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Sahibkarlığa Kömək Milli Fondunun kreditləri və sahibkarların vəsaiti hesabına yeni istehsal və emal sənayesi sahələrinin yaradılması istiqamətində işlər aparılmışdır.

Rayonun Qarabağlı, Yenikənd və Xələc kəndlərində hər birinin sahəsi 1,0 ha olan 6 müasir tipli istixana yaradılmış, Salyan şəhərində "SÜNBÜL-2012" MMC tərəfindən Un dəyirmanının və 2 mərtəbəli bazar-ticarət mərkəzinin tikintisinə başlanılmışdır.

Əhalinin işlə təmin olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində 2016-cı ildə 2381 daimi olmaqla 4005 yeni iş yeri yaradılmışdır.

2016-cı ildə rayonda məhsul buraxılışının həcmi müvafiq dövrə nisbətən 36 milyon 529 min manat, yəni 14,8 faiz artaraq 282 milyon 687 min manat, kənd təsərrüfatı məhsullarının ümumi həcmi müvafiq dövrə nisbətən 803 min manat, yəni 0,6 faiz artaraq 144 milyon 195 min manat, poçt və rabitə xidmətinin həcmi 19,9 min

manat, yəni 3,5 faiz artaraq 584 min manat, pərakəndə satış dövriyyəsi 33 milyon 181 min manat, yəni 19,1 faiz artaraq 206 milyon 664 min manat, əhaliyə göstərilən pullu xidmət 6 milyon 861 min manat, yəni 14,7 faiz artaraq 53 milyon 572 min manat, sənaye məhsulunun ümumi həcmi 25 milyon 715 min manat, yəni 66,3 faiz artaraq 64 milyon 451 min manat, nəqliyyat xidmətinin həcmi 2 milyon 266 min manat, yəni 2,4 dəfə artaraq 3 milyon 899 min manat, əsas kapitala yönəldilən investisiya 77 milyon 928 min manat olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 7 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə Çuxanlı-Piratman-Gəncəli-Parça Xələc-Seyidan avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 3,8 milyon manat vəsait ayrılmışdır. 30,2 km kəndarası avtomobil yolunun tikintisi əsasən başa çatdırılmışdır və hazırda son tamamlama işləri aparılır.

Azərbaycan Respublikası Prezidentinin 7 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə Salyan şəhərində 1200 şagird yerlik yeni ümumtəhsil məktəb binasının tikintisi üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Salyan Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3,0 (üç) milyon manat vəsait ayrılmışdır.

Məktəb tikintisi üçün müvafiq torpaq sahəsi ayrılmış, layihə-smeta sənədləri hazırlanmış, binanın bünövrəsi qazılmış, bünövrəyə dəmir beton sütunlar olmaqla ümumilikdə 591 m3 beton tökülmüşdür. Tikilinin bünövrəsində 413 m2 qalınlığı 40 sm olan mişar daşından hörgü işi aparılmışdır. İşlər nəzərdə tutulan plan üzrə davam etdirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 oktyabr 2016-cı il tarixli, 537-s saylı sərəncamına əsasən Salyan rayonunda pambıqçılığın inkişafı ilə əlaqədar 5000 ha sahənin suvarma suyu ilə təmin edilməsi üçün 500,0 min manat, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 yanvar tarixli, 2607 nömrəli sərəncamına əsasən isə 2017-ci ilin dövlət büdcəsində nəzərdə tutulan dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündən 1 milyon 300 min manat vəsait ayrılmışdır.

2016-cı ilin avqust ayından başlayaraq İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin maliyyə dəstəyi ilə rayonun kəndlərində bir sıra layihələr həyata keçirilmişdir. Belə ki, Parça Xələc, Seyidan, Qarabağlı, Gomuşlu, Təzəkənd, Kolanı, Yenikənd kəndlərində ümumi uzunluğu 54 km olan kənddaxili yollara çınqıl döşənmiş, Şəkərli kəndində tibb məntəqəsinin tikintisinə başlanılmışdır.

Xocalı faciəsinin anım tədbirləri

Xocalı faciəsinin 25-ci ildönümü münasibətilə respublikamızın hər yerində anım tədbirləri keçirilir, bu böyük faciənin qurbanlarının xatirəsi yad edilir. Tədbirlərdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun döyüş qabiliyyətinin artırılmasından, torpaqlarımızın azad edilməsində Silahlı Qüvvələrimizin qəhrəmanlığından danışılıb və şəhidlərimizə görə düşmənə lazımi cavab verildiyindən söz açılıb.

RİH başçısı S.Hətəmovun təsdiq etdiyi tədbirlər planına uyğun olaraq rayonumuzda da silsilə tədbirlər keçirilmişdir. Salyan rayon Heydər Əliyev Mərkəzində keçirilən anım tədbirində RİH başçısı S.Hətəmov, RİH başçısı yanında Şura üzvləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbir iştirakçıları Salyan Rəsm Qalereyasının məktəbli rəssamlarının Xocalı soyqırımına həsr edilmiş rəsm işləri ilə tanış olmuşlar. Ədəbi-bədii kompozisiyada Xocalı soyqırımına həsr edilmiş qısametrajlı film nümayiş etdirilmişdir. Salyan peşə liseyinin direktoru, tarixçi-müəllim Razıgül Dadaşova, rayon polis şöbəsinin zabiti, əslən Xocalıdan olan Təyyar Rzaquliyev çıxış edərək 25 il əvvəl olmuş dəhşətli faciənin ayrı-ayrı anlarını xatırlatmış, ümummilli liderimiz Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Xocalı faciəsinin dünya ictimaiyyəti tərəfindən layiqli qiymətinin alınması istiqamətində həyata keçirilən möhtəşəm işlərdən söz açmış, Azərbaycan xalqının öz torpaqlarının müdafiəsinə hər an hazır olduğunu vurğulamışlar.

Tədbir rayon məktəblilərinin ifasında hazırlanmış ədəbi-bədii kompozisiya ilə yekunlaşmışdır.

***

Xocalı faciəsinin 25-ci ildönümünə həsr edilmiş ümumrayon tədbirləri fevral ayının 25-də şəhər mərkəzindəki "Şəhidlər" xatirə kompleksinin ziyarət edilməsi, burada "Əsgər anası" abidəsinin və Azərbaycanın Milli Qəhrəmanı Nazım Babayevin büstünün önünə gül-çiçək dəstələri qoyulması ilə davam etdirilmişdir.

Tədbirdə RİH başçısı Sevindik Hətəmov, Millət vəkili Əliağa Hüseynov, RİH başçısı yanında Şura üzvləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Rayon məktəbliləri Xocalıya həsr edilmiş kompozisiya ilə çıxış etmişlər.

***

Salyan rayon mərkəzləşdirilmiş kitabxana sisteminin mərkəzi kitabxanasında Xocalı qurbanlarının xatirəsi anılmışdır. Öncə Xocalı şahidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

MKS-nin direktoru Səidə Əliyeva, tədbir iştirakçılarından Səadət Məlikova, Ülviyyə Quliyeva, Nigar Qafarova Xocalı faciəsinin insanlığa sığmayan dəhşətlərindən söz açmış, şair-jurnalist Əzizağa Məmmədli vətənpərvərlik mövzusunda yazdığı şeirini söyləmişdir.

***

Salyan şəhər 7 saylı texniki fənlər təmayüllü məktəb-liseydə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə çıxış edənlər rayon ziyalılar birliyinin sədri, respublikanın Əməkdar müəllimi Allahverdi Piriyev, birliyin sədr müavini Afət Ələkbərov, Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin sədri Nəbi İbrahimov, mərkəzi kitabxananın işçisi Nigar Qafarova, şair-jurnalist Əzizağa Məmmədli Xocalı soyqırımının bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət olduğunu qeyd etmişlər. Məktəb şagirdlərinin ifasında nümayiş etdirilən ədəbi-bədii kompozisiya hamını təsirləndirmişdir.

Tədbir iştirakçıları Xocalı müsibətlərini özündə əks etdirən videoçarxa və məktəbin şagirdlərinin ifasında nümayiş etdirilən ədəbi-bədii kompozisiyaya tamaşa etmişlər.

***

Salyan rayonunun Yuxarı Xalac-2 kənd T.Şirinov adına tam orta məktəbində Xocalı soyqırımı ilə bağlı tədbir keçirilmişdir. Tədbirdə kəndin ərazi nümayəndəliyinin, kənd mədəniyyət evinin işçiləri, kəndin ağsaqqalları və valideynlər iştirak edirdilər. Öncə Xocalı soyqırımı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Məktəbin direktoru Rəşad Zeynalov, müəllimlər Naseh Ağabəyli və Reyhan Hüseynova Xocalı dəhşətləri, erməni vandalizmi barədə söz açmışlar. Çıxış edənlər Xocalı faciəsi zamanı vəhşicəsinə qətlə yetirilmiş insanların tezliklə qisasının alınacağına əmin olduqlarını bildirmişlər.

***

Salyan peşə liseyində şəhid ailələri və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş tədbirdə öncə Dövlət Himni səsləndirilmişdir.

Peşə liseyinin direktoru Razıgül Dadaşova, RİH-in məsul işçisi Sevinc Səmədova, Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin sədri Nəbi İbrahimov, rayon müharibə və əmək veteranları şurasının sədri Vilayət Əsgərov, şair-jurnalist Əzizağa Məmmədli çıxış edərək 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən soyqırımı aktının gənc nəslə çatdırılmasının zəruriliyini bildirdilər.

Peşə liseyi şagirdlərinin söylədikləri Xocalıya həsr olunmuş şeirlər, videoçarxda nümayiş etdirilən Xocalı dəhşətləri hər bir tədbir iştirakçısında düşmənə nifrət hissini daha da gücləndirdi.

***

Rayon Ə. Quliyev adına Mədəniyyət Mərkzində "Xocalının harayı" adlı tədbir keçirilmişdir. Rayon İcra Hakimiyyəti başçısının müavini Rəşad Cəbrayılov, ziyalılar, ağsaqqallar, təhsil, və mədəniyyət işçiləri iştirak etmişlər.

Xocalı faciəsinin qurbanları bir dəqiqəlik sükutla yad edildi. İncəsənət məktəbinin muğam şöbəsinin müəllim və şagirdləri, şəhər 3, 4 və 6 saylı tam orta məktəblərin şagirdləri kompozisiya nümayiş etdirmiş, 1 saylı şəhər klubunun müdiri Nuriyyə Quliyeva, Xocalı qaçqını, 2 saylı şəhər klubunun müdiri Həqiqət Əsgərova çıxış etmiş, iştirakçılar Xochıya həsr olunmuş qısa metrajlı filmə baxmışlar.

Dövlət Rəsm Qalareyasının dərnək üzvlərinin Xocalıya aid əsərləri nümayiş olunmuşdur.

Əli bəy Hüseynzadənin xatirəsi yad edilmişdir

Azərbaycan xalqının mütəfəkkir oğlu, ictimai-siyasi xadim, həkim, rəssam, yazıçı-publisist Əli bəy Hüseynzadənin fevral ayının 24-də anadan olmasının 153-cü ildönümü münasibətilə Salyan rayon ictimaiyyəti tərəfindən əlamətdar gün kimi anılmışdır. Həmin gün görkəmli ədibin Salyan şəhərində ucaldılmış monumental abidəsi önünə rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, aparatın məsul işçiləri, Şura üzvləri, rayonun idarə, müəssisə, təşkilat rəhbərləri, təhsil, səhiyyə və digər sahələrin nümayəndələri, ictimai təşkilatların təmsilçiləri XX əsr Azərbaycan türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri olan, həmyerlimiz Əli bəy Hüseynzadənin abidəsi önünə tər gül-çiçək dəstələri düzmüş, xatirəsini yad etmişlər.

Tədbir iştirakçıları minnətdarlıq hissi ilə vurğulamışlar ki, Əli bəy Hüseynzadənin 150 illik yubileyi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə 2014-cü ildə ölkədə yüksək səviyyədə qeyd edilmişdir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yubileyi

Salyan rayon İcra hakimiyyətində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının beşinci ildönümü münasibətilə tədbir keçirilmişdir.

Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı S.Hətəmov, hüquq-mühafizə orqanlarının rəhbərləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin kollektivi, idarə, müəssisə və təşkilatların rəhbərləri, ümumtəhsil orta məktəblərinin hərbi rəhbərləri və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.Tədbir iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül-çiçək dəstələri düzmüşlər. Tədbirdə rayon İcra hakimiyyətinin başçısı Sevindik Hətəmov çıxış edərək Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin kollektivini təbrik etmişdir. Tədbirdə çıxış edənlər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin işçilərinə göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə öz minnətdarlıqlarını bildirmişlər. Sonda Dövlət Xidməti rayon şöbəsinin bir qrup qabaqcıl işçisinə rayon İcra hakimiyyətinin başçısı tərəfindən fəxri fərmanlar təqdim edilmişdir.

YAP ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqları

Yeni Azərbaycan Partiyası ərazi partiya təşkilatlarının həyatında mühüm hadisə - hesabat və seçki yığıncaqları keçirilir. YAP Salyan rayon təşkilatı icra aparatının rəhbəri Mirzə Mirzəyev əməkdaşımızla söhbət zamanı demişdir ki, partiyanın rayon təşkilatı öz ətrafında 92 ərazi partiya təşkilatını birləşdirir. Hazırda bu təşkilatlarda hesabat və seçki yığıncaqları keçirilir. Partiya üzvləri son 5 ildə görülmüş işlərə yekun vurur, idarə heyətinin üzvlərini və sədrini seçir, həmçinin yeni dövr üçün fəaliyyət istiqamətlərini artırırlar.

Şorsulu kənd ərazi partiya təşkilatı öz ətrafında 150 nəfərə yaxın partiya üzvünü birləşdirir. Burada keçirilən hesabat-seçki yığıncağında təşkilatın sədri Famil Məmmədovun 2012-2016-cı illərdə Şorsulu ərazi partiya təşkilatının gördüyü işlər barədə hesabat məruzəsi dinlənilmişdir.

Məruzə ətrafında kənd ağsaqqallar şurasının sədri Valeh Hüseynov, partiya üzvlərindən Bədrəddin Abdullayev, Vahub Sadıqov və başqaları çıxış etmişlər.

Məruzə və çıxışlarda qeyd edilmişdir ki, ərazi partiya təşkilatının üzvləri son 5 ildə ictimai-siyasi həyatda yaxından iştirak etmiş, partiyanın rəhbərinin müəyyən etdiyi vəzifələrin həyata keçirilməsində fəallıq göstərmişlər. Ərazi partiya təşkilatı son 5 ildə Azərbaycan Konstitusiyasına edilən dəyişikliklər barədə Referendumda, Milli Məclisə və yerli bələdiyyələrə seçkilərdə YAP-ı layiqincə təmsil etmiş, siyasi kampaniyaların mütəşəkkilliklə keçirilməsinə töhfələr vermişlər.

Ərazi partiya təşkilatı kənddə aqrar sektorun inkişaf etdirilməsi, yeni pambıqçılıq sahələrinin yaradılması, həmçinin adamların sosial ehtiyaclarının təmin olunması istiqamətində səmərəli fəaliyyət göstərmiş, partiya üzvlərinin və kənd ağsaqqallarının yubiley mərasimlərini təşkil etmişdir. Hazırda partiya üzvləri yeni iqtisadi şəraitdə qarşıda duran vəzifələrin icrası ilə məşğuldurlar.

Ərazi partiya təşkilatı müzakirə olunan məsələyə dair müvafiq qərar qəbul etmiş, idarə heyətinin yeni tərkibini müəyyənləşdirmişdir. İdarə heyətinin ilk iclasında Famil Məmmədov yenidən ərazi partiya təşkilatının sədri seçilmişdir.

YAP Salyan rayon təşkilatı icra aparatının rəhbəri Mirzə Mirzəyev hesabat yığıncağında iştirak və çıxış etmişdir.

YAP rayon təşkilatının yığıncağı

Fevralın 21-də YAP Salyan rayon təşkilatının yığıncağı keçirilmişdir. Öncə Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Yığıncağı giriş sözü ilə açan YAP Salyan rayon təşkilatının sədri Rəşad Cəbrayılov gündəlikdə duran məsələlər barədə ətraflı məlumat vermişdir. Ermənistan silahlı birləşmələri, Dağlıq Qarabağdakı erməni yaraqlıları, habelə keçmiş sovet ordusunun 366-cı alayının fevralın 25-dən 26-na keçən gecə törətdikləri faciəni insanlığa qarşı yönəlmiş soyqırımı kimi səciyyələndirən Rəşad Cəbrayılov vaxtilə ulu öndər Heydər Əliyevin, bu gün isə onun ən layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu xarici siyasət sayəsində Azərbaycan həqiqətlərinin, o cümlədən Xocalı soyqırımının olduğu kimi beynəlxalq aləmə çatdırılmasında məqsədyönlü tədbirlərin həyata keçirildiyini diqqətə çatdırmışdır.

Heydər Əliyev siyasi məktəbinin rəhbəri, YAP Salyan rayon təşkilatı təftiş komissiyasının sədri Sahib Həsənov, YAP Salyan rayon təşkilatı idarə heyətinin üzvləri Əbülfət Bədəlov, Səidə Əliyeva, Şura üzvü Yavər Cəbrayılov Azərbaycan Milli Ordusunun qələbə, zəfər yürüşü ilə torpaqlarımızın, o cümlədən Xocalının tezliklə azad olunacağına, bu dəhşətli faciənin icraçılarının beynəlxalq məhkəmə qarşısında dayanaraq öz layiqli cəzalarına çatacaqlarına əminliklərini ifadə etdilər.

Şair-jurnalist Əzizağa Məmmədli vətənpərvərlik mövzusunda yazdığı şeirini söylədi.

YAP Salyan rayon təşkilatı icra aparatının rəhbəri Mirzə Mirzəyev, YAP Salyan rayon təşkilatının məsləhətçisi Murad Hüseynov gündəlikdə duran digər məsələlərlə bağlı çıxış etdilər.

YAP Salyan rayon təşkilatının sədri Rəşad Cəbrayılov yığıncağa yekun vurdu.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrası bölgələrin simasını dəyişdirib

III Dövlət Proqramının icrasının üçüncü ilinin yekunları ölkədə həyata keçirilən islahatların uğurlu nəticələr verdiyini təsdiqlədi. Yanvar ayının son günlərində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfransda görülmüş işlərə yekun vurulmuş, qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün yeni istiqamətlər müəyyənləşdirilmişdir.

Konfransda qeyd edilmişdir ki, qlobal böhranın dərinləşməsinə baxmayaraq, ötən il ölkədə kənd təsərrüfatı 2,6 faiz, ölkəmizin qeyri-neft sənayesi isə 5 faiz artmışdır. Davos Dünya İqtisadi Forumu Azərbaycanla bağlı verdiyi proqnozda ölkələrin rəqabət qabiliyyətliliyinə görə Azərbaycan üç pillə irəliləyərək 37-ci yerdə qərarlaşmışdır. Hazırki şəraitdə hökumətin bütün səyləri özəl sektoru böhranın mümkün mənfi təsirlərindən qorumaq, istehsal sahibkarlığını inkişaf etdirmək, rəqabət qabiliyyətliliyi təmin etmək, ixrac potensialını gücləndirməkdir.

2004-cü ildən, ilk Dövlət Proqramının qəbul edilməsi dövründən başlayaraq ölkəmizin regionlarında da sosial-iqtisadi inkişafa dair layihələr uğurla icra edilməkdədir. Son dövrlərdə təkcə Salyan rayonunun sosial-iqtisadi inkişafı üçün Prezident sərəncamları imzalanmış, tikinti-abadlıq, quruculuq işlərinə görə milyon manatlarla əlavə vəsait ayrılmışdır. Ələt-Astara-İran dövlət sərhəd avtomobil yolunun, Babazanan yaşayış massivini Salyan şəhəri ilə birləşdirən və Ələt-Astara magistral avtomobil yolunun, Çuxanlı kəndi ərazisində Kür çayı üzərində körpülərin, Çuxanlı-Piratman-Gəncəli-Parça Xələc-Seyidan avtomobil yolunun inşası və bir çox sosial təyinatlı obyektlər Dövlət Proqramlarının uğurlu həllindən xəbər verir.

Rayonumuzda qeyri-neft sektorunun inkişaf etdirilməsi, yeni istehsal sahələrinin yaradılması istiqamətində də tədbirlər ardıcıl həyata keçirilir. Dövlət qayğısı nəticəsində bu sahəyə yönəldilən kreditlər və sahibkarların vəsaiti hesabına yeni istehsal və emal sənayesi sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Rayonun Qarabağlı, Yenikənd və Xələc kəndlərində hər birinin sahəsi 1 hektar olan 6 müasir tipli istixana yaradılmış, Salyan şəhərində "SÜNBÜL-2012" MMC tərəfindən Un dəyirmanı və ikimərtəbəli bazar-ticarət mərkəzinin tikintisinə başlanılmışdır.

Salyan rayonunun ən iri və müasir sənaye müəssisəsi hesab olunan Plastik kütlə emalı zavodu vaxtilə keçmiş Ümumittifaq miqyasında belə məşhur idi. Yeni bazar iqtisadi şəraitində bu müəssisə də uzun müddət necə deyərlər, ayaq üstə dura bilmədi. Sonralar ASC kimi fəaliyyət göstərən zavod bazarın tələblərinə uyğun olaraq 50 millimetrdən başlayaraq 500 millimetrə qədər müxtəlif diametrli və yüksək təzyiqə davamlı plastik borular istehsalına başladı. Tezliklə burada müasir qapı və pəncərələr üçün müxtəlif profillər istehsalı da mənimsənildi. Lakin dünyada gedən və böhranla nəticələnən iqtisadi münasibətlər digər müəssisələr kimi "Plastik" ASC-nin də işini ciddi əngəllədi. Xaricdən gətirilən yüksək keyfiyyətli xammalların qiymətinin qalxması, nəqliyyat xərclərinin artması müəssisənin nəzərdə tutulan proqnozlara uyğun fəaliyyətinə ciddi mane oldu.

Yeni iqtisadi şəraitdə fəaliyyətini davam etdirmək qərarında olan rəhbərlik "SÜNBÜL-2012" MMC təsis etməklə gərəkli bir sahəni - rayonda müasir texnologiyalara əsaslanan çörəkbişirmə sənayesini inkişaf etdirməyə başladı. Hazırda müəssisənin müxtəlif çeşidli məhsulları alıcılar tərəfindən razılıqla qarşılanır. İndi müəssisə yeni un dəyirmanının istifadəyə verilməsi ilə istehsalın həcmini daha da artırmaq, maya dəyərini aşağı salmaq fikrindədir. ASC-nin idarə heyətinin sədri C.Axundov söhbət zamanı qeyd etdi ki, istehsal gücü sutkada 25 ton olan müəssisə tam gücü ilə işə düşdükdən sonra burada 10 nəfər ücün yeni və daimi iş yeri açılacaqdır. Daha sonra öyrənirik ki, "Plastik" ASC-nin mövcud istehsal fondlarından daha səmərəli istifadə etmək üçün marketinq işləri öyrənilir, yeni bazar münasibətləri yaratmaq üçün yollar aranır. Perspektivdə burada 100-120 nəfər insan üçün yeni iş yeri nəzərdə tutulmuşdur.

Yanvar ayının son günlərində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyevin çıxışı və ölkə başçısının uğurla həyata keçirdiyi iqtisadi siyasət yeni sosial infrastrukturların istifadəyə verilməsi, işsizlik probleminin həlli, nəticə etibarı ilə Azərbaycan insanının daha firavan yaşamasına xidmət edəcəyindən xəbər verir.

Rüstəm MƏLIKOV.

Aqropark yaradılır

Salyan rayonunun Qızılağac kəndinin ərazisində yerləşən dövlət fond torpaqlarının kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsi məqsədi ilə Azərtəsərrüfat MMC-yə 3000 hektar torpaq sahəsi ayrılıb. Hazırda ayrılan ərazinin yararlı hala gətirilməsindən ötrü ağır texnikaların köməkliyi ilə təmizlik və abadlıq işləri aparılır. Torpaqların əkinə və istifadəyə yararlı hala salınması ilə bərabər ərazidə mövcud sudaşıyıcı kanallar təmizlənir, yeni kanallar da qazılır. Bu günə kimi 60 kilometrdən artıq kollektor-drenaj, 20 kilometr uzunluğunda isə su kanalı ildən təmizlənməklə dərinləşdirilib. Respublika Prezidenti cənab İlham Əliyevin idxalın əvəzlənməsi siyasətinə uyğun olaraq kompleksdə kənd təsərrüfatının müxtəlif sahələrinin qarşılıqlı fəaliyyəti planlaşdırılıb ki, bu da istehsal asılılığının aradan qaldırılmasına yardımçı olacaq.

Azərtəsərrüfat MMC-nin təsisçisi Tahir Həsənzadənin verdiyi məlumata görə, kompleksdə fəaliyyət göstərəcək Aqroparkın kənd təsərrüfatı texnikaları ilə təchizatı üçün Avropanın müxtəlif ölkələri ilə danışıqlara başlanılıb. Təsərrüfatda bostan bitkilərinin becərilməsi də nəzərdə tutulub. İlkin olaraq bu il 600 hektara yaxın sahədə bostan və dənli, paxlalı bitkilər əkiləcək. Təsərrüfatda pambıq əkini keçirməkdən ötrü Türkiyədən yüksək məhsuldarlıqlı çiyid toxumunun yaxın günlərdə gətirilməsi gözlənilir. Yazlıq şumlama işlərinə artıq start verilərək torpağın münbitliyinin artırılması istiqamətində işlər aparılır.

Burada maldarlığın əsasən ətlik istiqamətinin inkişafı məqsədi ilə Avropanın müxtəlif ölkələrindən xüsusi məhsuldar cins heyvan növləri olan Holşteyn, Şves, Smental, Aberdin kimi növlərin gətirilməsi üçün müqavilələr bağlanılıb. İyun ayında heyvanların ölkəyə gətirilməsi planlaşdırılıb. Bu məqsədlə ilkin mərhələdə uzunluğu 100, eni 26 metr olan 2000 başlıq 5 fermanın inşası işləri sürətlə davam etdirilir. Təkcə heyvandarlıq təsərrüfatı üçün 31 hektar ərazi ayrılıb. Mal-qaranın yem təchizatının təmin edilməsi məqsədi ilə yem zavodunun inşası da nəzərdə tutulur. Müasir avadanlıqlarla təchiz ediləcək yem zavodu bölgədə fəaliyyət göstərən digər heyvandarlıq təsərrüfatlarının da tələbatını ödəmək iqtidarında olacaq.

Layihə çərçivəsində Aran bölgəsində analoqu olmayan 500 hektar ərazidə ən müasir standartlara cavab verən istixana təsərrüfatlarının salınması da nəzərdə tutulur. Kompleks tam gücü ilə fəaliyyətə başladıqdan sonra burada 1000 nəfərin işlə təmin edilməsi gözlənilir ki, bu da işsizliyin aradan qaldırılması baxımından mühüm rol oynayacaq.

Təyyar NƏSİRLİ.

Şərəfli peşə sahibi

Gülşən Piriyeva-60

Müəllimlik yer üzündə ən müqəddəs peşələrdən biridir. Ulu öndərimiz Heydər Əliyev demişdir: "Təhsil ocaqlarımızda gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanları tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır".

Bütün zamanlarda, bütün xalqlarda müəllim cəmiyyətin ən çox sevilən, ehtiram bəslənən üzvü olub, ən dəyərli sözlər onun haqqında deyilib. Sənətindən, peşəsindən, həyatdakı mövqeyindən asılı olmayaraq hər birimizin qəlbində müəllimə böyük hörmət vardır. Heç kimə sirr deyil ki, müəllim qədər nəcib, şərəfli bir ömür yaşayan digər peşə sahibləri çox azdır. Öz halal əməyi, zəhməti ilə nəsillərə örnək olan müəllim neçə-neçə gəncin, yeniyetmənin dünyagörüşünün formalaşması, müstəqil həyata qədəm qoyması yolunda biliyini və bacarığını əsirgəmir. 60 illik ömrünün 40 ilini gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş Gülşən Əliağa qızı Piriyeva öz müqəddəs peşəsinə ləyaqətlə əməl edən, respublika səviyyəsində tanınmış kimya-biologiya müəllimidir.

Gülşən Piriyeva 1957-ci ildə Salyan şəhərində ziyalı ailəsində anadan olmuşdur. Atası "Respublikanın Əməkdar aqronomu" Əliağa İsayev kənd təsərrüfatı sahəsində bacarıqlı mütəxəssis kimi tanınmışdır. Anası Sonaxanım Ağarəhim qızı ixtisasca mühəndis olmuş, Salyan Kənd Təsərrüfatı Texnikumunda müəllim işləmişdir.

Gülşən İsayeva hələ orta məktəb illərindən elmə, biliyə olan dərin marağı ilə seçilmiş, dəfələrlə respublika üzrə kimya və biologiya olimpiadalarında uğurlu nəticələr əldə etmişdir. O, 1973-cü ildə Salyan şəhər 2 saylı orta məktəbi bitirərək, həmin ildə də Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kimya-biologiya fakültəsinə qəbul olunmuşdur. Təhsil illərində də özünü işgüzar və bacarıqlı tələbə kimi göstərən Gülşən institutu fərqlənmə diplomu ilə bitirərək doğma rayona qayıtmış və 1978-ci ildən Salyan şəhər 7 saylı orta məktəbdə kimya-biologiya müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. O, 40 ilə yaxındır ki, həmin məktəbdə çalışır. Gülşən müəllim işgüzarlığı, əməksevərliyi, elmi-metodik hazırlığı, yüksək intellektual səviyyəsi ilə valideynlərin, pedaqoji kollektivin və rayon ictimaiyyətinin dərin hörmətini qazanmışdır. O, kimya-biologiya fənni üzrə metodbirləşmənin sədri, rayon təhsil şöbəsinin ştatdankənar metodisti, rayon olimpiadalarında təşkilat komitəsinin üzvü kimi məqsədyönlü fəaliyyət göstərir.

Gülşən müəllimin rəhbərlik etdiyi "Gənc kimyaçılar" dərnəyinin üzvləri respublika səviyyəli olimpiadalarda xüsusi fəallıq göstərmiş, həmçinin onların bəziləri Moskva Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən qiyabi məktəbin üzvləri olmuş, Ümumittifaq miqyaslı tədbirlərdə uğurla iştirak etmişlər.

Olimpiadalarda şagirdlərinin uğurlu nəticələrinə görə Gülşən müəllim 1985-ci ildə Mendeleyev Cəmiyyətinin Fəxri fərmanına layiq görülmüşdür. O, attestasiyaların nəticəsi olaraq "Baş müəllim", "Metodist müəllim" və "Ali kateqoriyalı müəllim" adlarına layiq görülmüşdür.

Gülşən müəllim 1999-2000-ci tədris ilində "Təhsilin humanistləşdirilməsi yolu ilə yeni pedaqoji təfəkkürün inkişafı" çərçivəsində keçirilmiş müsabiqədə rayon üzrə "İlin ən yaxşı müəllimi" adına layiq görülmüşdür. O, 2001-2002 və 2002-2003-cü illərdə keçirilən pedaqoji mühazirələrin respublika turlarında I dərəcəli diplomla mükafatlandırılmışdır. 2002-2003 və 2003-2004-cü tədris ilində "İlin müəllimi" müsabiqəsinin respublika turlarında iştirak edərək I dərəcəli diploma layiq görülmüş və respublikada kimya fənni üzrə "İlin müəllimi" seçilmişdir. 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə o, "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür. Gülşən müəllim 2004-cü ildən TQDK ilə sıx əməkdaşlıq edərək "Ali məktəblərə daxil olmaq üçün vəsait", "Kimya-test tapşırıqları və mövzuların izahı" vəsaitlərinin hazırlanmasında fəal iştirak etmiş, 2011 və 2014-cü illərdə kimyadan qəbul imtahanlarının salınmasında ekspert kimi fəaliyyət göstərmişdir.

O, hələ 2008-ci ildən Təhsil Problemləri İnstitutunun dissertantı kimi "Kimyanın həyatla əlaqəli tədrisi üzrə metodik işin sistemi" mövzusunda olan elmi araşdırma üzərində işləməklə yanaşı, kimyanın tədrisi metodikası üzrə 23-ə qədər məqaləsini respublika və xarici ölkə jurnallarında dərc etdirmiş, 2006-2007-ci illərdə Britaniya Şurası"nın təsis etdiyi interaktiv təlim layihəsi kursunda 2 il müddətində müasir interaktiv təlimin incəliklərinə yiyələnmişdir. O, 2008-2009-cu tədris ilində respublikada keçirilən "100 ən yaxşı müəllim" müsabiqəsində qalib gələrək ilk onluğa daxil olmuşdur. O, həm də dəqiq fənlər üzrə bu onluğa daxil olan yeganə

müəllimdir. Gülşən müəllim uğurları ilə kifayətlənmir, daim öz üzərində çalışır, elmi-metodiki və pedaqoji biliklərini artırır. Konfranslarda, elmi-praktik seminarlarda və yığıncaqlardakı məzmunlu çıxışları bunu bir daha sübut edir. O, keçirilən ictimai-siyasi tədbirlərdə də öz fəallığı ilə seçilir. O, respublika müəllimlərinin XII və XIII qurultaylarının nümayəndəsi olmuş, XII qurultayda öz təcrübəsi barədə çıxış etmişdir.

Gülşən müəllim 2014-cü ildə yenidən "100 ən yaxşı müəllim" müsabiqəsində iştirak edərək ikinci dəfə qalib olmuşdur. O, 2015-ci ildə Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıq edərək VII siniflər üçün yazılmış kurrikulum testlərinin müəlliflərindəndir.

Gülşən müəllim qayğıkeş ana, sədaqətli ömür-gün yoldaşıdır. Həyat yoldaşı Allahverdi müəllim rayonun tanınmış riyaziyyat müəllimi-"Əməkdar müəllim"dir. Üç övladı var. Böyük qızı Firuzə tibb institutunu bitirərək həkim, digər qızları Günel və Aysel BDU-nu bitirərək riyaziyyat müəllimi ixtisasına yiyələnmişlər.

Gülşən müəllimə YAP rayon təşkilatının üzvüdür. O, yenə də gənclik enerjisi ilə çalışır. Rayonda kimya müəllimləri üçün dayaq məntəqəsinin sədri olmaqla öz təcrübəsini, bilik və bacarığını rayon və respublika müəllimləri ilə bölüşür, pedaqoji uğurlarını ləyaqətlə davam etdirir.

60 illik yubileyi günlərində həmkarları, şagirdləri və doğmaları onu ürəkdən təbrik edir, bundan sonrakı pedaqoji fəaliyyətində də ona cansağlığı, xoşbəxtlik və yeni-yeni nailiyyətlər arzu edirlər.

Biz də ürəkdən bu təbriklərə qoşuluruq.

"QƏLƏBƏ".

Əməkdar müəllimin yubileyi qeyd edildi

Salyan rayon İcra Hakimiyyətinin akt zalında Salyan şəhər 7 saylı texniki fənlər təmayüllü məktəb-liseyin Əməkdar müəllimi Gülşən Piriyevanın 60 illik yubileyinə həsr edilmiş təntənəli yığıncaq keçirilmişdir. Salyan rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov rayonun pedaqoji ictimaiyyətinin toplandığı iclası açaraq adı həmişə uca tutulan müəllim əməyindən danışmış, yubilyarın fəaliyyətinə dövlətimiz tərəfindən verilən yüksək qiymətləri xatırlatmışdır.

RİH başçısı Sevindik Hətəmov uzun müddət səmərəli fəaliyyətinə və anadan olmasının 60 illiyi münasibətilə G.Piriyevaya Fəxri fərman təqdim etmişdir. TİAHİ rayon komitəsinin cədri Yaqut Ələsgərova çıxış edərək yubilyara Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri fərmanını təqdim etmişdir.

Tədbirdə Təhsil Nazirliyinin 13 saylı ərazi maliyyə-hesablaşma mərkəzinin rəisi Fərahid Qəhrəmanov, Əməkdar müəllim Fərqanə Cəbrayılova, Xudaverdi Piriyev, müəllimlərdən Rəşad Tağıyev, Arzu Daşpoladova, Razıgül Dadaşova, ictimaiyyət nümayəndələrindən Vaqif İslamov və Rafiq Kərimov çıxış edərək yubilyarı təbrik etmişlər.

Təsərrüfat xəbərləri

Fermer təsərrüfatını genişləndirir

Rayonumuzun Dayıkənd kəndində yaşayan Fərəc Əzizov ötən il heyvandarlıq və quşçuluq ferması yaradıb. 1 hektarlıq torpaq sahəsində ilkin olaraq tövlə tikdirib. Tikinti başa çatdıqdan sonra 20 baş ətlik və südlük istiqamətində xaricdən gətirilmiş cins düyələr alıb. Bu günlərdə xarici ölkədən daha 30 baş iribuynuzlu cins heyvan gətirilib. Həm çəki, həm də süd vermək baxımından yerli inəklərdən fərqlənən cins heyvanlar yerli şəraitə uyğunlaşdırılıb. Həmin heyvanlara daim baytar həkimlər tərəfindən nəzarət olunur. Hələlik cins heyvanların saxlanılmasında elə bir çətinlik yoxdur. Hazırda 100 baş cins düyələrin 30 başı ətlik, 70 başı isə südlük istiqamətində bəslənir. Təsərrüfatını genişləndirmək niyyətində olan Fərəc Əzizov əlavə bir tövlə də inşa etdirib. Bundan sonra 2 tövlənin tikintisini planlaşdırıb. Təsərrüfata xaricdən daha 100 baş cins düyənin gətiriləcəyi gözlənilir.

Fermer Fərəc quşçuluq təsərrüfatını da ötən ilin əvvəlində yaradılıb. Yerli toyuqların yumurtalarını almaqla qısa müddətdə cücələrin sayını 30 minə çatdırıb. Fermer təsərrüfatını genişləndirmək, quş ətinin satışı ilə yanaşı, damazlıq yumurta da istehsal etmək niyyətindədir. Artıq bunun üçün 2 hektara yaxın torpaq sahəsi də alıb.

Təsərrüfat sahibinin sözlərinə görə, kredit götürdükdən sonra həmin ərazidə tikinti işlərinə başlanılacaq. Bununla da gələcəkdə 30 min baş quşun sayı artırılıb 300 minə çatdırılacaq. Həmin quşlardan 100 min başı sırf damazlıq yumurta üçün saxlanılacaq. Beləliklə, quş əti ilə yanaşı yumurta istehsalına da başlanılacaq.

Qış aratı aparılır

Pambıqçılıqdan daha çox məhsuldarlıq əldə etmək üçün əsas şərtlərdən biri də qış aratının aparılmasıdır. Odur ki, rayonda bu işə xüsusi önəm verilir. 10 ildən çoxdur ki, pambıqçılıqla məşğul olan fermer Eldar Quliyev də bu ildən etibarən şumlanmış sahələrdə qış aratına başlayıb. Bu il 680 hektarda pambıq əkməyi nəzərdə tutan fermer artıq 250 hektardan çox sahədə arat aparıb.

Fermer Eldar Quliyevin dediyinə görə, qış aratı başa çatdıqdan sonra torpaq qüvvətlənir. Səpin qabağı torpaqda nəmlik yaratmaq məqsədi ilə yaz aratı da aparılacaq və bundan sonra çiyid səpini keçiriləcək.

Qeyd edək ki, bu il rayonda əkiləcək 7 min hektar pambıq sahəsindən 14 min tondan çox məhsul götürülməsi proqnozlaşdırılıb. Bu günə kimi 6 min hektardan çox pambıq sahəsində şum qaldırılıb ki, bunun da 800 hektarında qış aratı keçirilib.

Ətraf mühitin qorunması milli maraqlara xidmət edir

XXI əsrin ən mühüm və qlobal problemlərindən biri də təbii sərvətlərin qorunması və onların davamlı istifadəsinin düzgün təşkilidir. Təəssüf ki, planetimizdə bir çox fauna və flora növləri artıq məhv olmuş və ya onların sayı kəskin surətdə azalmışdır. Bu gün dünyada dəqiqədə 50 hektar meşə sahəsi məhv edilir, hər gün 30 növ fauna və floranın nəsli kəsilir. Bioloji müxtəlifliyin belə sürətli itkisi yer kürəsini və bütövlükdə canlı aləmi ciddi təhlükələr qarşısında qoymuşdur.

Planetimizi birgə əməkdaşlıqla qoruya bilərik

Yaşadığımız planet bizə böyük görünsə də, əslində sonsuz deyildir. Real vəziyyət hamımızın eyni faciənin astanasında olduğumuzdan xəbər verir. Beynəlxalq rəsmi statistikada deyilir ki, adicə içməyə yararsız olan sudan istifadə etməklə indiyə kimi yer üzərində müharibələrdə həlak olanlardan daha çox insan tələf olmuşdur. Beynəlxalq ictimaiyyətin fikrincə, yer kürəsində bioloji müxtəlifliyi yalnız beynəlxalq əməkdaşlıq yolu ilə xilas etmək mümkündür. Təəssüf ki, dünyada fəlakət mənbələri hələ çoxdur.

Dünyanın Atom Elektrik Stansiyaları üzrə tədqiqatçı alimləri Ermənistan Respublikasının ərazisində yerləşən, istismar müddətini çoxdan başa vurmuş Metsamor AES-in ətraf mühiti çirkləndirmək dərəcəsinin daha da dəhşətli təhlükələr yaradacağından ehtiyatlanır və həyəcan siqnalı verirlər. Çünkü bu obyekt region ekologiyası üçün bütövlükdə böyük təhlükədir. Hazırda dünyada 5 növ atom reaktorundan istifadə edilir ki, Metsamor AES-in reaktoru təhlükəsizlik baxımından xeyli geridə qaldığı üçün bura daxil deyildir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı, geoloq-mütəxəssis M.Y.Fətəliyevin verdiyi məlumata görə, Ermənistan tərəfindən işğal altında olan Azərbaycan ərazilərində 163 müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən: 5 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 daş kömür, 12 əlvan və bəzək daşları, 10 mişar daşı, 21 üzlük daşı, 16 yeraltı şirin su, 11 mineral su yataqları və digər çox qiymətli təbii sərvərimiz ekologiyaya ciddi ziyan vurulmaqla ermənilər tərəfindən talan edilməkdədir. 260 min hektardan çox meşə sahəsi hələ də Ermənistan tərəfindən işğal altındadır. Ümumiyyətlə, yaxın dövrlərə kimi Azərbaycanda ətraf mühitə münasibət milli maraqlara xidmət etməyib.

Tarixə nəzər salsaq, görərik ki, Azərbaycanın təbii sərvətləri yadellilər tərəfindən sözün əsl mənasında təcavüzə məruz qalıb. Uzun müddət neftimiz, pambığımız, Xəzərin balıq nemətləri sərhədlərimizdən kənara çıxarılıb. XVIII-XIX əsrlərdə indiki Azərbaycanın ərazisinin 35 faizi meşələrlə örtülü olub. Dağlıq ərazilərlə yanaşı, Aran düzənliklərində, xüsusən Kür çayı boyunca Tuğay meşələri ətrafa gözəllik verməklə yanaşı, biomüxtəlifliyin qorunmasında müstəsna rol oynamışdır. Tarixi salnamələrdə qeyd edilir ki, 1735-ci ildə Nadir şah Şamaxıya səfər edərkən 10 min nəfərdən çox qoşun heyəti Kür çayı sahillərindəki Tuğay meşələrində düşərgələr salmış və istirahət etmişlər. Təəssüf ki, həmin meşələrdən bu gün əsər-əlamət yoxdur. Rəsmi məlumata görə, hazırda respublikamızın meşə fondu torpaqları ölkə ərazisinin 14 faizini, meşə ilə örtülü sahələr isə cəmi 12 faizini təşkil edir.

Yer Kürəsində bioloji müxtəlifliyi beynəlxalq əməkdaşlıq yolu ilə xilas etmək üçün 1992-ci ildə Braziliyanın Rio-de Janeyro səhərində "Yer Kürəsi" Sammiti keçirilmiş və burada Birləşmiş Millətlər Təşkilatının "Bioloji müxtəliflik haqqında" Konvensiyası imzalanmışdır. Dövlətimiz tərəfindən ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin artırılması, xüsusən meşə sahələrinin genişləndirilməsi istiqamətində beynəlxalq tələblərə cavab verən və milli mənafeyə xidmət edən ardıcıl siyasət həyata keçirilir. Məhz bu məqsədlə ölkəmiz 2000-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının "Bioloji müxtəliflik haqqında" Konvensiyasına qoşulmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu istiqamətdə digər dövlət tədbirləri ilə yanaşı adı çəkilən Beynəlxalq Konvensiyadan irəli gələn öhdəliklərin milli səviyyədə yerinə yetirilməsi məqsədilə 2006-cı il 24 mart tarixli Sərəncam imzalamışdır. Bu məqsədlə 2006-2010-cu illəri əhatə edən "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı" təsdiq edilmiş, nəzərdə tutulmuş tədbirlər uğurla icra olunmuşdur.

Ətraf mühitə münasibətdə yeni dövr

Ölkəmizdə təbii sərvətlərin və biomüxtəlifliyin qorunması, bütövlükdə ətraf mühitin mühafizəsi işinin əsasını ümummilli liderimiz Heydər Əliyev qoymuşdur. "İnsan təbiətdən öyrənir, onun havası ilə pərvəriş tapır, ağıla dolur, zənginləşir, təzələnir, təmizlənir"- deyən Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ekologiya məsələlərinə xüsusi önəm vermişdir. 1970-ci illərdə ümumi sahəsi 30 min hektara yaxın Şirvan və Hirkan qoruqları yaradılmış, respublikada ilk dəfə olaraq "Qırmızı kitab" nəşr edilmişdir.

Xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev bu sahədə beynəlxalq standartlara əsaslanan hüquqi bazanın yaradılmasına və müvafiq icra strukturlarının təşkilinə nail olmuşdur. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılmasından sonra ölkəmizdə təbii sərvətlərin qorunmasına münasibət əsaslı surətdə dəyişmişdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktor əvəzi Hikmət Əlizadə bu ilin yanvar ayında AZƏRTAC-a verdiyi müsahibədə bildirmişdir ki, Azərbaycanda 9 milli park, 11 qoruq, 24 yasaqlıq fəaliyyət göstərir. Xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 893 min hektardır. Bu da Azərbaycanın ərazisinin 10,3 faizini təşkil edir. Hazırda Azərbaycan hələ də meşəlikləri nisbətən az olan ölkələrdəndir. Normaya görə, ərazimizin ən azı 22 faizi meşə örtüyü altında olmalıdır.

"Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 3 oktyabr 2016-cı il tarixli Sərəncamı da ölkəmizdə ətraf mühitin mühafizəsinə və biomüxtəlifliyin qorunmasına nə qədər əhəmiyyət verildiyini və bu siyasətin davamlı olduğunu sübut edir. Qəbul edilən Milli Strategiyanın əsas məqsədi bioloji müxtəlifliyin qorunması və gələcək nəsillərə çatdırılması, genetik ehtiyatlardan səmərəli istifadə, ekoloji tarazlığın tənzimlənməsi, ekoloji maarifləndirmənin həyata keçirilməsi, endemik flora və yerli fauna növlərinin bərpası, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin artırılmasıdır.

Strategiyanın prioritet istiqamətlərinə gəlincə, bura bioloji müxtəliflik və ekosistem xidmətləri ilə bağlı əhalinin maarifləndirilməsi, ekoloji biliklərin inkişaf etdirilməsi, monitorinq sisteminin təkmilləşdirilməsi, genetik müxtəlifliyin bərpası, xüsusi mühafizə olunan təbiət ərazilərinin səmərəli idarə edilməsi - milli parklar, qoruqlara yeni ərazilərin əlavə olunması, bioloji müxtəliflik sahəsində hüquqi qanunvericiliyin təkmilləşdirilməsi, cəmiyyətin bioloji müxtəlifliyin qorunmasına aktiv cəlb olunması, müxtəlif qurumlar və o cümlədən QHT-lərlə iş aparılması daxildir.

Azərbaycan Paris sazişinin üzvüdür

İqlim dəyişiklikləri məsələsinə həsr edilmiş qlobal saziş BMT-nin 2015-ci ilin dekabrında Parisdə keçirilən konfransında 80-dən çox ölkədən hökumət başçılarının iştirakı ilə imzalanmışdır. İqlim üzrə Paris sazişi adlanan bu sənəd 2016-cı ilin noyabr ayında artıq qüvvəyə minmişdir. Bunun üçün 55 ölkə sənədi ratifikasiya etməli idi. Dünyada istixana qazı tullantılarının ümumi həcminin azı 55 faizi bu qədər ölkənin payına düşür.

Paris sazişini vaxtında ratifikasiya edən ölkəmiz bu istiqamətdə sanballı uğurlar qazanıb. Belə ki, ölkəmizdə qlobal iqlim dəyişiklikləri ilə bağlı öhdəliklərin yerinə yetirilməsi istiqamətində konkret tədbirlər görülüb və atmosferə atılan tullantıların azaldılması üzrə səmərəli layihələr icra edilib. Respublikada alternativ və bərpa olunan enerjidən istifadə genişləndirilib.

Artıq beynəlxalq müşahidəçilər və ekspertlər təsdiq ediblər ki, Azərbaycan yaşıllıqlar sahəsinin ildən-ilə genişləndirildiyi az sayda ölkələrdən biridir. Yel və Kolumbiya Universitetləri mütəxəssislərinin tədqiqatlarının nəticəsinə görə Azərbaycan son 10 ildə meşə sahəsinin mühafizəsi və genişləndirilməsində irəliləyiş əldə edən ölkələr arasında ikinci yeri tutur.

Biomüxtəlifliyə münasibətdə region nümunəsi

Aran iqtisadi zonasına daxil olan Salyan rayonu ərazisində təbii meşə sahəsi demək olar ki, yoxdur. Burada Şirvan Milli Parkı fəaliyyət göstərir. Rayonda ətraf mühitin mühafizəsi və biomüxtəlifliyin qorunması məqsədilə zəruri tədbirlər həyata keçirilir. Şəhərin ərazisində ümumi uzunluğu 65 kilometrdən çox olan küçələrin hər birinin Kür çayının sahilinə çıxışı vardır. İnsanlar Kürü sevirlər və heç vaxt onun adının yanında "çay" sözünü işlətməzlər. Sadəcə "Kür" deyərlər. Ustad Aşıq Pənah Pənahovun "Ana Kürüm" gəraylısı da bu çaya olan məhəbbətdən qaynaqlanır. Təəssüf ki, adına nəğmələr qoşulan, Azərbaycanın ən böyük çayının suyu tibbi nöqteyi-nəzərdən içmək üçün yararlı deyildir. Bədnam qonşularımız Ermənistandan başlamış digər yerlərdə də çaya zərərli sənaye və məişət tullantıları axıdılmaqdadır.

Qeyd edildiyi kimi, Kür çayı sahilində mövcud olmuş Tuğay meşələri artıq insanların da yaddaşından silinməkdədir. Hər il yaz dövründə, su daşqınları zamanı təbiətin özünübərpa cəhdi nəticəsində əmələ gələn yeni yaşıl pöhrəliklər də insanlar tərəfindən örüş kimi istifadə edilərək mal-qaraya yedizdirilir. Digər tərəfdən isə şəhərsalma inkişaf etdikcə yeni tikililər çayın sahil bəndləri ərazilərini də əhatə edir.

Bununla belə, şəhərin park və küçələrində yola saldığımız ildə 39 min ədəddən çox ağac və gül kolları əkilmiş və hazırda onların qorunub saxlanılması və aqrotexniki qaydada qulluq edilməsi üçün tədbirlər görülür. Təbiətə qarşı qayğı işində rayonun ictimaiyyəti, idarə və müəssisələr, məktəblər birlikdə fəaliyyət göstərirlər. Qeyri-hökumət təşkilatlarının da fəaliyyətini qeyd etməyə dəyər. Rayonda 7 ildir ki, fəaliyyət göstərən "Ana Kür" ekoloji problemlərin öyrənilməsinə kömək ictimai birliyi Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə hər il ətraf mühitin mühafizəsi və biomüxtəlifliyin qorunması istiqamətində müxtəlif maarifləndirici və praktik yönümlü layihələr icra edir. Yerli İcra Hakimiyyəti və bələdiyyələrin də dəstəyi ilə həyata keçirilən layihələrdən faydalananların sayı getdikcə artır.

Rayonda 2009-cu ildən nəşr edilən "Ana Kür" adlı ictimai, ekoloji maarifləndirici qəzet də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə və regionlarda həyata keçirilən ekoloji siyasətin, Dövlət Proqramlarının, qanunvericilik aktlarının, həmçinin Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair qəbul edilən illi Strategiyanın və müvafiq Fəaliyyət proqramının həyata keçirilməsində yaxından iştirak edir.

Ekologiya da iqtisadiyyata xidmət edəcək

Bu ilin yanvar ayında Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə başçısı yeni şəraitdə iqtisadiyyatın qeyri- neft və digər sahələri ilə yanaşı, qəbul edilmiş Milli Strategiyaya uyğun olaraq ekoloji tədbirlərin də davam etdiriləcəyini bildirmişdir. Ölkə başçısı qeyd etmişdir ki, artıq bundan sonra daha çox dekorativ ağaclar yox, bar verən ağaclar əkilməlidir. Ona görə bütün rayonlarda da iqlimə uyğun şəkildə ağacəkmə prosesi davam edəcək. Ancaq bunun həm iqlimə, ekologiyaya, həm də iqtisadiyyata müsbət təsiri olmalıdır.

Qeyd etmək yerinə düşər ki, isti iqlim şəraitində özünü yaxşı hiss edən zeytun, nar, heyva, xurma bağlarının salınması istiqamətində Salyan rayonunda yaxşı təcrübə vardır. İndiyə kimi bu sahədə məhsuldar bağlar salınmış, şəhərin küçə və meydanlarında 10 minlərlə ədəd müxtəlif növ zeytun ağacları əkilmişdir ki, artıq bu ağaclardan nübar məhsul gözlənilir.

Demək, regionlarda yeni sahə, tədarük və emal strukturu formalaşacaq, iqtisadi səmərə əldə ediləcəkdir. Bəli, ölkədə həyata keçirilən bütün ekoloji layihələr qlobal mahiyyət və gözlənti daşıyaraq milli mənafeyə xidmət etməkdədir.

Rüstəm MƏLİKOV,
Ali Media mükafatı laureatı,
Yazı Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün çap edilir.

1 Mart -Ümumdünya Mülki Müdafiə Günüdür

Bir mart Beynəlxalq Mülki Müdafiə Təşkilatının qərarı ilə elan olunub və hər il bütün qitələrdə kütləvi humanitar tədbir kimi qeyd edilir. Azərbaycan bu nüfuzlu beynəlxalq təşkilatın tərkibinə 1993-cü ildə daxil olub. Beynəlxalq Mülki Müdafiə Günü hər il konkret bir problemə həsr edilir. Əhalinin mühafizəsini təşkil etmək, fövqəladə hallardan mühafizə sahəsində onların hazırlığını təmin etmək mülki müdafiə orqanları qarşısında bir nömrəli vəzifə kimi durur. Mülki müdafiənin hazırkı şəraitdə son dərəcə aktuallığını və "1 Mart-Ümumdünya mülki müdafiə günü"nü nəzərə alaraq "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının 30 dekabr 1997-ci il tarixli Qanununun aşağıdakı müddəalarından irəli gələn vəzifələri maarifləndirmə tədbiri kimi vətəndaşlarımızın nəzərinə çatdırılmasını məqsədəmüvafiq hesab edirik)

Azərbaycan Respublikasının Prezidenti 1992-ci il iyulun 31-də "Azərbaycan Respublikasının Mülki Müdafiəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə 73 saylı fərman və 1998-ci il aprelin 18-də "Mülki müdafiə haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 700 saylı fərman imzalanmışdır. Yeni Əsasnamə və Qanunda respublikada mülki müdafiənin əsas məqsəd və vəzifələri, habelə dövlət hakimiyyəti və idarəetmə orqanlarının, ictimai təşkilatların, eləcə də məsul şəxslərin və bütün vətəndaşların mülki müdafiə üzrə vəzifələri müəyyən edilmişdir.

Mülki müdafiə - dinc dövrdə və ya müharibə dövründə əhalinin (Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasının ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) və ərazinin (Azərbaycan Respublikası ərazisinin hüdudları daxilində torpaq, su və hava məkanının, istehsal və sosial təyinatlı obyektlərin, habelə ətraf mühitin) təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə dövlət hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilən tədbirlər sistemidir;

Mülki müdafiə sistemi - mülki müdafiənin vəzifələrinin yerinə yetirilməsi həvalə edilmiş müvafiq icra hakimiyyəti orqanlarının, qüvvə və vasitələrin, xüsusi fondların, rabitə, xəbərdarlıq və informasiya təminatı sistemlərinin məcmusudur;

Fövqəladə hadisə - insan tələfatına, insanların səhhətinə və ya ətraf mühitə ziyan vurulmasına, əhəmiyyətli maddi itkilərə və insanların həyat fəaliyyəti şəraitinin pozulmasına səbəb ola biləcək və ya səbəb olmuş hərbi əməliyyatlar, qəza, təbii və ya digər fəlakət nəticəsində müəyyən ərazidə yaranmış vəziyyətdir;

Fövqəladə hadisələrin qarşısının alınması - fövqəladə hadisələrin baş verməsi təhlükəsinin maksimum azaldılmasına, belə hadisələr baş verəcəyi hallarda isə insanların və onların sağlamlığının qorunmasına, ətraf mühitə vurula biləcək ziyanın və maddi itkilərin həcminin azaldılmasına yönəldilən və əvvəlcədən həyata keçirilən tədbirlər sistemidir;

Fövqəladə hadisələrin və onların nəticələrinin aradan qaldırılması - insanların həyatının xilas edilməsinə və sağlamlığının qorunmasına, ətraf mühitə vurulan ziyanın və maddi itkilərin həcminin azaldılmasına, fövqəladə hadisələrin yayılmasının qarşısının alınmasına yönəldilmiş və fövqəladə hadisələr zamanı həyata keçirilən qəza-xilasetmə tədbirləri və digər təxirəsalınmaz işlərdir.

Mülki müdafiə sahəsində Azərbaycan Respublikası vətəndaşlarının aşağıdakı vəzifələri vardır:

1) mülki müdafiə sahəsində Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əməl etmək;

2) fərdi və kollektiv müdafiə vasitələrindən istifadə etməyi bacarmaq;

3) fövqəladə hadisələrdən əsas müdafiə üsullarını və vasitələrini öyrənmək və bilmək;

4) fövqəladə hadisələr zamanı müəyyən olunmuş davranış qaydalarına əməl etmək;

5) ilk tibbi yardım göstərilməsi qaydalarını öyrənmək və onu tətbiq etməyi bacarmaq;

6) mülki müdafiə işarələrini bilmək və onlara uyğun hərəkət etmək;

7) baş verə biləcək və ya baş vermiş fövqəladə hadisələr barəsində müvafiq dövlət orqanlarına və qonşulara məlumat vermək;

8) mülki müdafiə sahəsində onlara tapşırılmış vəzifələri vicdanla yerinə yetirmək.

Mülki müdafiə sahəsində Azərbaycan Respublikası vətəndaşlarının aşağıdakı hüquqları vardır:

1) fövqəladə hadisələr baş vermiş ərazilərdə zəruri təhlükəsizlik tədbirləri haqqında tam və obyektiv məlumat almaq;

2) fövqəladə hadisələr baş vermiş ərazilərdə fərdi və kollektiv müdafiə vasitələrindən istifadə etmək;

3) fövqəladə hadisələrin qarşısının alınmasında və nəticələrinin aradan qaldırılmasında müəyyən olunmuş qaydada iştirak etmək;

4) mülki müdafiə məsələləri ilə bağlı müvafiq dövlət orqanlarına şəxsən müraciət etmək və ya yazılı təkliflər vermək;

5) fövqəladə hadisələr nəticəsində səhhətinə və əmlakına dəymiş ziyana uyğun ödənclər almaq; 6) fövqəladə hadisələr baş vermiş ərazilərdə yaşamağa və işləməyə görə müavinətlər almaq. Bu maddənin birinci hissəsinin 6-cı bəndində nəzərdə tutulan müavinətlərin növləri və məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Vəzifəli şəxslərin və vətəndaşların məsuliyyəti:

-Bu Qanunun tələblərinin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da mülki müdafiə işinin təşkilinə rayon İcra hakimiyyəti rəhbərliyi daim xüsusi diqqət yetirir. Rayonda mülki müdafiə işi "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri səviyyəsində qurulmuş və bu sahədə mühüm tədbirlər həyata keçirilir. Rayon İcra Hakimiyyətinin bilavasitə rəhbərliyi və əməli köməkliyi ilə rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların 5 illik mülki müdafiə planları, illik Tədbirlər planlarının hazırlanmasına əməli köməkliklər göstərilir, planlarda nəzərdə tutulmuş işlərin vaxtında icra edilməsinə nəzarət edilir. Mülki müdafiə günü ilə bağlı rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə yerlərdə Qızıl Aypara Cəmiyyətinin yerli təşkilatı ilə birgə nümunəvi maarifləndirici tədbirlər keçirilir, tədbirlərdə iştirakçıları maraqlandıran suallar cavablandırılır, texnika və avadanlıqların, fərdi mühafizə vasitələrinin vəziyyətinə, fövqəladə hallar zamanı mülki müdafiə və dəstələrinin əməli fəaliyyətlərinə baxış keçirilir.Tədbirlərin məhsuldar, effektli keçirilməsində Rayon Mərkəzi Xəstəxanası, Regional Qaz İstismarı idarəsi, Baş Mil-Muğan Kollektorlarının İstismarı idarəsi, Salyan Peşə Liseyi, digər təşkilatların və Mülki Müdafiə Qərargahının rəhbərləri daha ciddi səy göstərirlər.

Bu əlamətdar gün münasibətilə rayon Icra Hakimiyyətinin başçısı cənab S.Hətəmovun adından respublikamızın fövqəladə hallar və mülki müdafiə sahəsində çalışan bütün əməkdaşlarını və rayonumuzun sakinlərini təbrik edir, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu və digər sahələrdə qarşımıza qoyduğu tapşırıq və tövsiyələrin yerinə yetirilməsində uğurlar arzulayıram.

Şəmsəddin ƏBİLOV,
Rayon Icra Hakimiyyəti başçısı yanında "Mülki müdafiə işləri üzrə komissiya"nın sədri.

Vətənpərvərlik tədbirləri şagirdlərin həyatında silinməz izlər buraxır

Məktəblərdə gələcək nəsillərə, şagirdlərə vətənpərvərlik ideyalarının aşılanması hər birimizin vətəndaşlıq borcu hesab olunur. Çünki bu günün şagirdi sabahın əsgəridir. Vətənimizi qoruyan əsgərlər, qəhrəmanlar isə məktəbdə formalaşır.

Gənclərin vətənpərvərlik, dövlətimizə və xalqımıza məhəbbət ruhunda tərbiyə edilməsi ən mühüm vəzifələrdən biridir. Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında ulu öndər Heydər Əliyevin müdrik kəlamı didaktik əhəmiyyət daşıyır: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili daha böyük aktuallıq kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ötən il xalqımıza qələbə sevincini, bu il isə işğal altında olan yurd yerlərimizə qayıdışın qürur dolu hisslərini yaşatdı. Ən böyük dahilər də həyata cocuqluqdan başlayırlar. Bəlkə bizim düşmən əsarətində olan torpaqlarımıza qayıdışımızın Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən başlanmasının da hansısa rəmzi mənası var. Beləliklə, qayıdacağımız məkanların coğrafiyasını getdikcə böyüdəcəyik.

Bu gün təlim-tərbiyə işlərinin əsas qayəsi gələcək üçün mübarizlər, ramillər, çingizlər, salatınlar, həcərlər tərbiyə etməkdir. Bu baxımdan Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə 2009-cu ildən başlayaraq keçirilən "Azərbaycan ailəsi" adlı film festivalında Vətənə məhəbbət, vətənpərvərlik hisslərinin aşılanması, dövlət ailə siyasətinin həyata keçirilməsi, milli-mənəvi dəyərlərin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması, ailədə sülh və dözümlülük mədəniyyətini əks etdirən seçilmiş filmlərin tədric müəssisələrində nümayiş etdirilməsi silsilə şəklində həyata keçirilir.

Bu məqsədlə Salyan peşə liseyində və eləcə də inteqrasiya təliminin internat tipli gimnaziyada Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar "Azərbaycan ailəsi - 2016" film festivalına təqdim olunan "Müharibə uşaqları" və "Xoşbəxtliyin açarı" filmləri nümayiş olunmuşdur.

Sevinc SƏMƏDOVA,
Aparıcı-məsləhətçi, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi" üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu.

Milli Qəhrəmanın doğum günü qeyd edildi

Salyan rayonunun Yuxarı Xalac-2 kənd tam orta məktəbində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü münasibətilə tədbir keçirildi. Tədbirdə məktəbin şagird və pedaqoji kollektivi ilə yanaşı, rayonun mədəniyyət işçiləri də iştirak edirdilər.

Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi bir dəqiqəlik sükunla yad edildikdən sonra tədbiri giriş sözü ilə açan məktəbin direktoru Rəşad Zeynalov Mübariz İbrahimovun həyatı, əfsanəvi qəhrəmanlığı barədə ətraflı məlumat verdi.

Şəhid atası, respublikanın Əməkdar mədəniyyət işçisi Cahangir Qaraşov, aprel döyüşləri zamanı şəhid olmuş Rəşid Mehdiyevin atası Rövşən Mehdiyevin çıxışları şagirdləri Mübarizin qəhrəmanlığından bəhrələnməyə, nümunə götürməyə çağırdı.

Kənd ağsaqqallar şurasının sədri Hacı Oktay Məmmədov, məktəbin müəllimləri Naseh Ağabəyli, Ülviyyə Əsgərova, Pərvanə Rzayeva, Rəsul Rəsulov, Reyhan Hüseynova, Ceyran İslamova, Vəfa Nəzərova, kəndin axundu Nüsrət Bağırov və başqaları çıxış edərək vətənpərvərlik baxımından bu tədbirin əhəmiyyətini xüsusi olaraq vurğuladılar. Məktəbin şagirdləri vətənpərvərlik mövzusunda şeirlər söylədilər, səhnəciklər nümayiş etdirdilər.

Məktəbin IX sinif şagirdləriLəman Hidayətova və Mələkxanım Bayramovanın Mübariz İbrahimova həsr etdikləri şeirlər maraqla qarşılandı.

Mübarizləri olan Vətən basılmaz

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum gününü qeyd etmək üçün Salyan rayon mərkəzləşdirilmiş kitabxana sisteminin uşaq kitabxanasının kollektivi Salyan şəhər 3 saylı tam orta məktəbdə oxucuları ilə görüşdülər. Onlar monitor qarşısında dayanaraq Milli Qəhrəmanın xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Baş kitabxanaçı Familə Hüseynova, məktəbin ibtidai sinif müəllimi Fatma Ələkbərzadə Mübariz İbrahimovun keçdiyi döyüş yolundan söz açaraq hər bir Azərbaycan vətəndaşının onunla fəxr etdiyini, qürur hissi keçirdiyini bildirdilər.

Məktəbin II sinif şagirdi Rakif Şıxlarov Mübariz İbrahimova həsr olunmuş şeiri söylədi.

Tədbirə yekun vuran uşaq kitabxanasının müdiri Aygün Şıxlarova Mübariz kimi qəhrəmanların mənalı ömür yolunun gələcək nəslə örnək olduğunu vurğuladı.

S.İBRAHİMOVA,
böyük kitabxanaçı.

Evimə gəl, ay bala

Vətən naminə həyatını qurban verərək şəhid olan Mirzə Əliyev Salyan rayonunun Şorsulu kəndində dünyaya göz açıb. 1994-cü il martın 10-da erməni faşistlərinə qarşı igidliklə döyüşərək əbədiyyətə qovuşan Mirzənin ölümünə anası Səadət xanım hələ də inanmaq istəmir. Düşünür ki, oğlu nə vaxtsa evin qapısını açaraq içəri girəcək və ananın uzun illər ürəyində gəzdirdiyi həsrətə, niskilə son qoyulacaq.

Səadət xanımın bu arzu ilə qələmə aldığı şeirini oxuculara təqdim edirik.

Bu dünya sandım ki, mən gözlərimdə qaraldı,
Gözləməkdən gözlərim zəfərantək saraldı,
Gənc yaşımda qocaldım, qara saçım ağardı,
Günlər aya qovuşdu, aylar dönüb il oldu,
Sənin getdiyin gündən gör neçə fəsil oldu,
Ürəyim, gözüm qurban, evimə gəl, ay bala.

Bahar bayramı gəlir, yurdumuza xoş gəlir,
Zaman durmadan qaçır, yaş üstünə yaş gəlir,
Elim şadlıq içində, hamı sevinir, gülür,
Bilirəm sən Novruzu çox sevirdin, ay bala,
Bu ili də mən sənsiz bil, keçirdim, ay bala,
Canım boyuna qurban, evimə gəl, ay bala.

8 Martda eşitdim sənin o son səsini,
On martda mən itirdim doğma, əziz kəsimi.
11 martda dəfn etdim torpaqda nəfəsimi,
Şəhidlərə min rəhmət, qoy şad olsun ruhunuz,
Vətən, başın sağ olsun, enməsin Bayrağımız,
Şəhid adına qurban, evimə gəl, ay bala.

Səadət ƏLİYEVA.

Həmyerlimizin fərdi sərgisi keçiriləcəkdir

Məhərrəmov Həmid Əlibəy oğlu 1980-ci ildə Səlyan rayonunda rəssam ailəsində dünyaya gəlmişdir. Səlyan rayon Əliyağa Kürçayli adına 7 saylı orta məktəbdə oxuduğu vaxtlarda bir çox məktəblilər arası sərgilərdə iştirak etmişdir. İlk rəssamlıq təhsilini Salyan rayon Rəsm Qalereyasında almışdır. 1995-1999-cü illərdə Ə. Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda, 1999-2004-cü illərdə isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında Rəngkarlıq ixtisası üzrə təhsil almışdır.

O, 2001-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdü, müxtəlif miqyaslı sərgilərin iştirakçısıdır. Hal-hazırda Respublika İncəsənət Gimnaziyasında müəllim işləyir.

2017-ci ilin mart ayının 14-də sat 18:00 Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə 1969 Qalereyasında "Transformasiya" adlı fərdi yaradıcılıq sərgisi keçiriləcəkdir.



"Şəms" Tərcümə Xidmətləri Mərkəzinin regional şöbəsi Salyanda fəaliyyətə başlamışdır

"Şəms" Tərcümə Xidmətləri Mərkəzi 2000-ci ildə yaradılıb. Mərkəz vətəndaşlara və şirkətlərə 40-dan artıq dil üzrə xidmət göstərməkdədir. Burada həmçinin apostil və leqallaşdırma xidmətləri həyata keçirilir. Şirkət sinxron və şifahi ardıcıl tərcümə xidmətləri sahəsində ixtisaslaşmışdır.

2013-cü ildən hal-hazıra qədər ASAN xidmət mərkəzlərində fəaliyyət göstərməkdədir. Şirkət Azərbaycan Respublikası Standartlaşdırma, Meteorologiya və Patent üzrə Dövlət Komitəsinin standartlarına uyğun sertifikatlaşdırılıb.

Şirkət öz xidmətlərini genişləndirmək məqsədilə regional şöbələrinin yaradılmasına başlamışdır. İlk belə şöbənin açılışı 2 fevral - Gənclər günü Salyan rayon mərkəzində keçirilmişdir. Şirkət rəhbərliyinin və rayon sakinlərinin iştirakı ilə keçirilən tədbirdə iştirakçılar burada yaradılmış şəraitlə tanış olmuşlar. "Şəms" Tərcümə Xidmətləri Mərkəzi regional Salyan rayon şöbəsinə ali, hərbi təhsilli mütəxəssis Vüqar Yaqubov rəhbərlik edir.

Söhbət zamanı V.Yaqubov bildirmişdir ki, rayon şöbəsi vətəndaşlara və şirkətlərə mərkəzin təklif etdiyi bütün xidmətləri göstərməkdədir. Hazırda 2 nəfərin çalışdığı şöbəyə gün ərzində azı 5-6 nəfər müraciət edən olur. Sifarişlərin icrası ünvana çatdırılır. Rüsumlar da çox münasibdir: 2 manatdan 5 manata qədər.

Müraciət edənlərdən təhsil sahəsində çalışan Rauf Hüseynov və sığorta işçisi Seymur İsmayılov mərkəzin Salyan rayon şöbəsindən razılıq etdilər.

ETİBARSIZDIR

Salyan rayonu Marışlı kənd sakini, mərhum Rzayeva Hövya Hüseyn qızının adına, Salyan rayonu Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən verilmiş 11.02.2016-cı il tarixli, kitab №-2, səhifə-179-da qeydə alınmış 925 saylı QEYDİYYAT vəsiqəsi və TEXNİKİ pasport, Dövlət torpaq xəritəçəkmə komitəsinin Salyan rayon filialı tərəfindən verilmiş JN-100A, kod-80909018 saylı Torpağın Mülkiyyətə Verilməsinə dair ŞƏHADƏTNAMƏ itdiyi üçün etibarsız sayılır.

Salyan şəhər M.Ə.Rəsulzadə küçəsi-33 (keçmiş Q.İsmayılov k-33) Babayev Şahin Şəmsi oğlunun adına 11.10.1995-ci il tarixli M-98 reyestrli Ev Bağışlama Müqaviləsinə əsasən verilmiş, kitab-2, səhifə-78-də qeydə alınmış 436 saylı Qeydiyyat Vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Salyan şəhər sakini Şükürov Elnur Bahadir oğlu tərəfindən təsis edilən "ECELL" məhdud məsuliyyətli cəmiyyətin Nizamnamə və Vergi Nəzarəti Kitabçası və həmin şəxsə məxsus 7000455512 nömrəli VÖEN itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Aqrar İslahat Komissiyasının 30 iyul 1998-ci il tarixli 09 saylı qərarı ilə Salyan rayonu Arbatan kənd sakini Səlimov Siyasət Naib oğlunun adına verilmiş Torpağın Mülkiyyətə Verilməsinə dair Şəhadətnamə (JN-608A) itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN

Salyan MRX doğum şöbəsinin həkim kollektivi iş yoldaşları
ELMİRA XANIMIN
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Salyan peşə liseyinin mühəndis-pedaqoji kollektivi liseyin müəllimi Ağamirzə Əbilova, qardaşı
ƏHDİYAR ƏBİLOVUN
vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verir.

R.Rzayev adına şəhər 3 saylı tam orta məktəbin pedaqoji kollektivi məktəbin riyaziyyat müəllimi Kamilə Həsənovaya, atası
ZƏFƏRİN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

R.Rzayev adına şəhər 3 saylı tam orta məktəbin pedaqoji kollektivi məktəbin coğrafiya müəllimi Balaxanım Babayevaya, anası
KÜTAHİ XANIMIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

R.Rzayev adına şəhər 3 saylı tam orta məktəbin pedaqoji kollektivi Lalə və Məhərrəm Məmmədovlara, əzizləri
ELMİRA XANIMIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Həkimlərdən Sabir və Yaşar Kərimovlar Salyan RİH-nin məsul işçisi Məhərrəm Məmmədova, anası
ELMİRA XANIMIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rüstəm Məlikov və rayon "Qələbə" qəzeti redaksiyasının kollektivi qəzetin veteranı Fəxrəddin Fərzəliyevə, əmisi
FƏRZƏLİ FƏRZƏLİYEVİN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor: R.S.Məlikov

Müəlliflə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Faktlara görə müəlliflər cavabdehdir.

Telefonlarımız: (021)255-23-68, 255-07-50, 255-29-26
E.mail:qelebe@box.az
Ünvanımız: AZ 5200
Salyan, Heydər Əliyev prospekti 92

Qeydiyyat N478.
Tiraj: 750. Sifariş: 9-11
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnərək Bakının "BZ" mətbəəsində çap edilmişdir

Kapital Bankın Salyan filialında hesab №AZ17AİİB33070019444300222143 VÖEN:7000080071

Məsul növbətçi: Ə.B. Məmmədli